**Nəcəfxanlı, Əli**. Düşmənləri xar eləyər qeyrəti türkün / Ə. Nəcəfxanlı // Xalq qəzeti. - 2020. - 11 dekabr. - **№ 260**. - S. 11.

***Türk dünyasının qüdrətli təmsilçisi, 85 milyona yaxın əhalisi olan, sürətlə inkişaf edən, beynəlxalq məsələlərdə sözünü qətiyyətlə deyə bilən, NATO-nun üzvü olan Türkiyə hazırda yaxın Şərq və Aralıq dənizi regionunda sülhün təminatçısı kimi tanınır. Qardaş ölkə Cənubi Qafqazda da sülh carçısı olan və səsi aydın eşidilən bir dövlətdir.***

Fəxrlə demək olar ki, bu gün dünyada Azərbaycanla Türkiyə qədər bir-birinə yaxın olan, bir-birinə güvənən, qarşılıqlı dəstək verən və regionun inkişaflı gələcəyi üçün birgə çalışan başqa iki ölkə yoxdur. Mənəvi bağlarımızdan, ortaq tariximizdən, mədəniyyətimizdən su içən bu birlik, bu bağrıbadaşlıq əbədidir. Hazırda Azərbaycanla Türkiyə arasındakı münasibətlərin çox yüksək səviyyədə olmasının bir əsas səbəbi də iki ölkənin dövlət rəhbərlərinin – İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluq, qardaşlıq münasibətləridir.

Son proseslər unudulmaz dahi şəxsiyyət Heydər Əliyevin böyük sevgi ilə Azərbaycan-Türkiyə qardaşlığını dəyərləndirərək irəli sürdüyü “Bir millət, iki dövlət” tezisini gerçək həyatda bir daha təsdiqləmişdir. Yaxın tariximizə nəzər salaq: Bakı-Tbilisi-Ceyhan, Bakı- Tbilisi-Ərzurum, TANAP və TAP kimi enerji layihələri, Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Bakıda keçirilmiş hərbi parad, Türkiyədə “STAR” neft emalı zavodunun işə salınması və s. ölkələrimiz arasındakı sarsılmaz dostluğun nümayişi kimi fərəh doğurur.

Yenicə başa çatmış Vətən müharibəsində böyük qələbəmizi qeyd etdiyimiz bu günlər isə həm də Azərbaycan-Türkiyə arasındakı qardaşlığın yeni salnaməsidir. Bu sətirləri yazdığımız anlarda istər-istəməz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın unudulmaz xalq şairi Bəxtiyar Vahabzadədən çox sevdiyi və tez-tez təkrarladığı misralar yada düşür:

***Bir ananın iki oğlu,***

***Bir amalın iki qolu.***

***O da ulu, bu da ulu –***

***Azərbaycan-Türkiyə!***

Türkiyə Qarabağda aktiv hərbi əməliyyatların ilk günündən Azərbaycana siyasi və mənəvi dəstəyini əsirgəmədi. Münaqişədə tarixi ədalətin bərqərar olması üçün səsimizə səs verdi. Özünün gücü, təsir imkanları ilə Azərbaycanı erməni təəssübkeşlərindən qorudu. Ərazilərimizi məhz havadarlarının əli ilə zəbt etmiş erməni işğalçılarının bu dəfə döyüş meydanında qəhrəman Azərbaycan əsgəri ilə üz-üzə qalmasına şərait yaratdı. Prezident Rəcəb Tayyib Ərdoğan başda

olmaqla bu ölkənin bir çox rəsmiləri, Türkiyə cəmiyyətinin ən nüfuzlu simaları Azərbaycanın yanında olduqlarını bəyan etdilər.

Dövlətimizin başçısı İlham Əliyev ötən ay Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibəsində haqlı olaraq bildirdi ki, əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə kimlərsə pəl vura bilərdi: "Türkiyənin bu mesajları hər kəsə "dur!" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın... Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır".

Biz bu qələbəmizlə qardaş Türkiyə ilə yeni tarixi nailiyyətlərə imza atacaq, daha böyük uğurlar qazanacağıq. Bunun müjdə xəbəri Ermənistan üçün əsl kapitulyasiya sənədi olan 10 noyabr bəyanatı olub. İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyanın imzaladıqları həmin bəyanatda Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilib. Buna nail olunmasında Türkiyənin təsir imkanları danılmazdır. Orada kommunikasiyanın bərpası həm Naxçıvanın blokadasının aradan qaldırılmasını, həm də Türkiyənin birbaşa yolla Xəzər dənizinə və Orta Asiya respublikalarına çıxışını təmin edəcək. Təsadüfi deyil ki, həmin yola artıq obrazlı şəkildə "Böyük Turan yolu" deyilir.

Azərbaycanın qələbəsindən sonra ərazidə sülhün qorunması prosesində də Türkiyə yaxından iştirak edəcək. Bu məqsədlə yaradılan Monitorinq Mərkəzində Türkiyə hərbçiləri də xidmət aparacaq, burada sülhün qorunmasına öz töhfələrini verəcəklər. Artıq bununla bağlı müvafiq memorandum imzalanıb. Türkiyə Böyük Millət Məclisi Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana sülhməramlıların göndərilməsinə dair qərar layihəsini təsdiqləyib. Türk hərbi heyəti Qarabağda qurulacaq Türkiyə- Rusiya müşahidə mərkəzində bir il müddətinə fəaliyyət göstərəcək. Ehtiyac olduqda müddət artırılacaq.

Rusiya Prezidenti Vladimir Putin dəfələrlə Azərbaycanın Türkiyə ilə yaxşı münasibətlərdə maraqlı olduqlarını etiraf edib: "Azərbaycan müstəqil, suveren dövlətdir və kimi lazım bilirsə, onu özünə tərəfdaş seçmək haqqı var... Dağlıq Qarabağ məsələsində Türkiyəyə istənilən qiyməti vermək olar, ancaq onu beynəlxalq hüququ pozmaqda günahlandırmaq olmaz. Yeri gəlmişkən, Türkiyə əvvəldən Qarabağ məsələsinin tənzimlənməsi üzrə ATƏT-in Minsk qrupunun üzvü olub. Odur ki, Türkiyə tənzimlənmə üzrə beynəlxalq institutun, beynəlxalq mexanizmin daxilində olub". Başqa bir çıxışında isə Vladimir Putin Türkiyənin elə onun rəhbərlik etdiyi Rusiya üçün də etibarlı tərəfdaş olduğunu təsdiqləməklə bədxahlarımızı xar edib.

...Zəfər paradı bir daha tarixin təkrar olunduğunu göstərdi. Fəxarətlə xatırlayırıq ki, düz 102 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri

erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. O zaman Bakının işğaldan azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri olub. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürülüb. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib.

Həmin vaxt türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olub, məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edib, şanlı komandan Nuru paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr verib.

Azərbaycan xalqı böyük minnətdarlıq duyğuları ilə onu da xatırlayır ki, Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1132 şəhid verib. Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları ziyarət olunur. Hər il Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış “Türk şəhidliyi” abidəsi önündə anım mərasimi keçirilir.

Elə dekabrın 10-da Zəfər paradından əvvəl iki qardaş prezidentin – İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Rəcəb Tayyib Ərdoğanın Bakının Fəxri xiyabanına gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiramla baş əymələri, eyni zamanda, Şəhidlər xiyabanını və Türk şəhidliyini ziyarət etmələri, həqiqətən də bir millət-iki dövlət amalının əbədi olduğunu bir daha göstərdi. Zəfər paradı isə Türkiyə rəhbərliyinin, eləcə də bu müharibədə canını vermiş 2783 şəhidimizin sayı qədər mehmetciyin iştirakı ilə daha da möhtəşəm oldu.

İkinci Qarabağ müharibəsində biz diplomatiya və informasiya cəbhəsində də böyük zəfərə imza atdıq. Heç şübhəsiz, bu qələbədə də Türkiyənin böyük rolu oldu. Cənab Rəcəb Tayyib Ərdoğan da, Türkiyənin digər rəsmiləri də Prezident İlham Əliyevin xarici jurnalistlərə müsahibələri, xalqa müraciətləri hər dəfəsində anındaca dəstəkləyir, obyektiv şəkildə şərh edərək dünyaya mesaj verirdilər. Bəzi çıxışları xatırlamaq yerinə düşər.

Türkiyə Prezidentinin sözçüsü İbrahim Qalın hələ oktyabrda demişdi:

– Diplomatiya adı altında işğalı davam etdirməyə çalışanların səyləri boşa çıxacaq. Cənab İlham Əliyev məsələyə çox gözəl yanaşdı: “Atəşkəs istəyənlər Ermənistana silah göndərir. Dağlıq Qarabağ gec-tez azadlığına qovuşacaq. Türkiyə Azərbaycanın yanında olmağa davam edəcək.

Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) sədr müavini Numan Qurtulmuş:

– Türkiyə hökuməti, milləti, Türkiyə Böyük Millət Məclisi, ümumilikdə qardaş xalqın bütün nümayəndələri Qarabağdakı möhtəşəm qələbə münasibətilə can Azərbaycanı təbrik edirlər. Qarabağ məsələsində beynəlxalq arenanı həm

Azərbaycan, həm də Türkiyə əleyhinə qaldırmaq istəyənlərə rəğmən yolumuzdan dönmədik. Prezident İlham Əliyevin liderliyində Azərbaycan kəskin mübarizə ilə ay yarım ərzində 29 illik yuxunu gerçəkləşdirdi və Qarabağ Azərbaycana qovuşdu. Qarabağ Azərbaycandır və qiyamətə qədər Azərbaycan olaraq qalacaq!

Qardaş ölkənin Milli Müdafiə Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polkovnik-leytenant Nadidə Şəbnəm Aktop isə xainlərin basdırdığı heç bir minanın birliyimizi sarsıda bilməyəcəyinə, birgə səylərlə zərərsizləşdiriləcəyini vurğulayıb:

– İşğaldan azad edilən ərazilərdə qardaş Azərbaycan Ordusuna dəstək məqsədilə Türkiyə Silahlı Qüvvələrinin mina və əldə düzəldilmiş partlayıcı qurğuların zərərsizləşdirilməsi üzrə mütəxəssisləri ərazini minalardan təmizləyir. Eyni zamanda, bununla bağlı təlimlər də keçilir. Həm kədərdə, həm də şad günlərdə bərabər olduğumuz, can qardaşlarımız Azərbaycan türkünün haqlı davasında bütün imkanlarımızla yanındayıq!

Onu da qeyd edək ki, daim terrorçuluqla mübarizənin önündə gedən Türkiyə hər zaman bü mücadilədə qətiyyət göstərir, dünyada sülhə, təhlükəsizliyə təhdid yaradan bütün təsirləri layiqincə dəf edir. Elə Azərbaycanın da öz torpaqlarını faşist xislətli, terrorçu və vandal ermənilərdən azad etməsindən Türkiyədə hədsiz məmnuniyyət ifadə olunub. Baş verən proseslər nəticəsində ortaya çıxan geopolitik durumun bütün parametrləri qardaş ölkənin diqqətindədir.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***